BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 Sosial-siyasi elmlər seriyası 2006

# İNSAN – SİYASƏT MÜNASİBƏTLƏRİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

**Ü.A.ŞƏFİYEV**
*Bakı Dövlət Universiteti*

*Təqdim olunan bu məqalədə insan-siyasət münasibətləri ilə bağlı müxtəlif konsepsiya və nəzəriyyələr təhlil edilmiş, Azərbaycan cəmiyyətində siyasi sosiallaşma və cəmiyyətin siyasi iştirakçılığı ilə bağlı mütərəqqi dəyişikliklərin şərhi verilmişdir. Burada həmçinin siyasi sosiallaşmanın model təsnifatına münasibət bildirilərək belə bir nəticəyə gəlinmişdir ki, insan-siyasət münasibətləri istənilən cəmiyyətdə və konkret tarixi şəraitdə spesifik cəhətlərə malik olub, hər cəmiyyətin məxsusi qanunauyğunluqları ilə izah olunmalıdır.*

Qədim yunan müdriki Pratoqorun «insan hər şeyin ölçüsüdür» mülahizəsinin məntiqi davamı kimi deyə bilərik ki, insan siyasət üçün də ölçüdür. İnsanı siyasətdən kənar təsəvvür etmədiyimiz kimi siyasi həyatı da insansız təsəvvür etmək çətindir. Hərçənd bütün zamanlarda bu və ya digər səviyyədə siyasi həyatın monopoliya alınması və beləliklə də ictimai auditoriyalarda siyasi özgələşmə toxumunun səpilməsi cəhdləri olmuşdur. Bunun bariz numunəsini yunan filosofu Platonun ictimai və elmi fikir tarixində birmənalı qarşılanmayan «siyasət çar sənətidir» kredosunda görmək olar.

Ən ümumi əsasa görə hakimiyyət və dövlət tərəfindən vətəndaşların siyasətdə iştirakçılığına münasibətin iki tipini göstərmək olar:totalitar və demokratik.Totalitar münasibət tipinin özü də iki formada təzahür edir. Birinci halda hakimiyyət vətəndaşı zorakı yolla siyasi iştirakçı edir və vətəndaş kortəbii şəkildə siyasi sosiallaşmanı yaşayır. Bu tipli yanaşma daha çox dövlətə vətəndaşdan öz siyasi kursunun və ya dövləti marağını təmin etmək üçün instrumentari kimi lazım gəlir. Məsələn, qapalı cəmiyyət olan sovet cəmiyyətində alternativsiz siyasi hərəkat elan olunan sosializm istisnasız olaraq sistemə daxil olan bütün vətəndaşları məcburi siyasi hərəkatçı etmişdi. Oktyabryat, pioner, komsomol, kommunist siyasi statusu beşikdən qəbrə qədər sovet adamının məcburi, müəyyənləşdirilmiş siyasi taleyinə çevrilmişdi. Fərqli düşünənlər dissident elan olunaraq ömürlük cəzalara məhkum edilmişdi.

Totalitar münasibət tipinin ikinci siması öz ifadəsini dövlətin vətəndaşlar arasında total səviyyədə siyasi özgələşmə toxumu

səpməsində tapır. Bu zaman dövlət vətəndaşın siyasətə marağını ya zorakı, ya da siyasi sublimasiya yolu ilə digər sahələrə yönəldərək siyasi özgələşmiş cəmiyyət yaradır.

Hakimiyyət tərəfindən vətəndaşın siyasi iştirakçılığına ikinci tip yanaşması demokratik yanaşma tipidir. Totalitar tipdən fərqli olaraq bu münasibətin bir çox müsbət özəllikləri vardır. Belə ki, bu zaman hakimiyyət vətəndaşın siyasətdə iştirakını zor gücü ilə hazırlamır və idarəetməni cəmiyyətin öz könüllü iştirakçılığı ilə həyata keçirir. Bu halda vətəndaş hakimiyyətdən deyil, hakimiyyət müəyyən mənada vətəndaşdan asılıdır. Çünki demokratiyada hakimiyyətin mənbəyi xalqdır. Lakin demokratik münasibət tipində də qüsurlar olmamış deyildir. Bu xüsusilə totalitarizmdən demokratiyaya keçid dövründə təzahür edən kütləvi siyasiləşmə və siyasi kütlələşmə kimi anormal siyasi sosiallaşma şəkilində özünü təqdim edir. Demokratik cəmiyyətlərdə dövlət vətəndaşların normal siyasi sosiallaşması və siyasi iştirakçılığı üçün münbit şərait yaradır, siyasi özgələşməyə lüzum qalmır.

Hakimiyyətin vətəndaşın və bütövlükdə cəmiyyətin siyasi sosiallaşma və siyasi iştirakçılığına bu və ya digər münasibəti olduğu kimi, insanların özlərinin də siyasətə, siyasi həyata münasibəti fərqlidir. Müxtəlif əsaslarla insanları siyasətə münasibətlərinə görə fəal siyasi insan, bacarıqlı müşahidəçi, tənqidçi, passiv vətəndaş, apalitik, siyasi özgələşmiş vətəndaş kimi təsnif etmək olar.

Mübaliğəsiz demək olar ki, insanı artıq 3-4 yaşlarından etibarən siyasət özünə cəlb edir. İnsanın siyasətə gəlişi, siyasi davranış tərzini təkcə siyasi stimullar deyil, digər amillər də müəyyənləşdirir. Belə amillər sırasına bioloji, psixoloji, ictimai, iqtisadi və s. amilləri aid etmək olar. Bu baxımdan Amerika politoloqu R.M.Merelman siyasi sosiallaşmanın bir neçə modelini təqdim edir. Politoloqun sistem model adlandırdığı birinci model hakimiyyətə, hüquqi qaydalara və ənənəvi institutlara insanların müsbət münasibəti əsasında formalaşmasını ifadə edir. Belə sosiallaşma üçün agent kimi ailə, məktəb, yaxın əhatə çıxış edir. İkinci model hegemon siyasi sosiallaşma adlanır. Bu model isə insanların, xüsusi ilə də gənclərin istənilən sosial-siyasi sistemə qarşı (öz ideyaları istisna olmaqla) düşmən əhvali ruhiyyəsinin formalaşmasını özündə ehtiva edir. Bu tipli sosiallaşma üçün KİV əsas sosial agentdir.

Plüralist model adlanan sosiallaşma tipi əsasən vətəndaşların öz siyasi maraq, bu siyasi maraqların reallaşmasında iştiraketmə, yüksək vətəndaş fəallığı əsasında formalaşır. Burada da partiyalar, məktəb, ailə, maraqlı qruplar əsas agentlərdir. Siyasi sosiallaşmanın «münaqişəli» modeli insanın mənsub olduğu qrupun loyal mövqeyini qoruyub saxlamaq, qruplararası mübarizə, qarşılıqlı asılılıqda olan mənafelərin bir-birinə zidd olması əsasında formalaşır. Belə sosiallaşma üçün müəyyən maraq qrupları, təbliğat və təşviqat orqanları agent qismində iştirak edir. R.M.Merelman bu modellərin hətta hansı cəmiyyətlər üçün

xarakterik olduğunu da qeyd edir. Belə ki, birinci model ingilis-amerikan, ikincisi qeyri-qərb cəmiyyətləri, üçüncüsü kontinental – Avropa, dördüncüsü qapalı, avtoritar siyasi sistemlər üçün xarakterikdir. Əlbəttə, tədqiqatçının problemə yanaşmasında müəyyən məna yükü olsa da onu basmaqəlib kimi qəbul etmək ,qüsurlu tərəflərini qeyd etməmək olmaz. Əvvəla tədqiqatçının siyasi sosiallaşmanın model təsnifatı bir qədər də geniş ola bilərdi və yaxud müəyyən çalarları özündə ehtiva etməklə daha korrekt, əhatəli və bitkin model təsnifatı kimi tərtib edilə bilərdi. Digər tərəfdən müəllifin sadalanan modellərin konkret cəmiyyətlərə müncər edilməsi və yalnız həmin cəmiyyətlər üçün xarakterik olması fikri üzərində israr etməsi mülahizəni mütləqləşdirməklə istisna hallarına yer qoymadığından qeyri real görünür. Əgər Azərbaycan cəmiyyyətinə müəllifin modelləri prizmasından yanaşsaq, bir qədər marginal görüntü yaranır. Yəni sadalanan mödellərin hər birinin Azərbaycan cəmiyyətinin siyasi sosiallaşmasında öz payı vardır. Fikrimizcə, istənilən cəmiyyətdə siyasi sosiallaşma qeyd edilən modellərin hər biri iştirak edir. Buna görə də bu modellər ayrıca götürülmüş konkret bir cəmiyyət üçün deyil, bütün cəmiyyətlər üçün xarakterikdir. Düzdür, ümumi anlayış olduğu qədər də immanent və ayrıca keyfiyyətdir. Deməli, hər bir cəmiyyət üçün siyasi sosiallaşma məxsusi təzahürlərlə özünü təqdim edir. Məsələn, açıq, qapalı və keçid dövrü cəmiyyətlərində siyasi sosiallaşma modellərinin fərqli olmaları tam mümkün və təbii haldır. Ancaq bu o demək deyildir ki, qeyd edilən modellər bu cəmiyyətlərin hər birində bu və ya digər şəkildə iştirak etmir.

İnsan-siyasət, insan-hakimiyyət münasibətləri ilə bağlı hələ çox uzaq dövrlərdə də fərqli yanaşmalar az olmamışdır. Bu yanaşmalarda insanın siyasətə gəlişi və siyasətə münasibəti fərqli şərh edilirdi. Xatırlatmaq yerinə düşər ki, klassik qərb siyasi fikri insanın siyasətə münasibətinin əsasında insan təbiətini görürdü. Yunan müdrikləri Platon, Aristoteldən başlamış T.Hobbs və başqaları insanı eqoist, hakimiyyətsevər varlıq adlandıraraq insanın siyasətə münasibətini əsasən bu amillərlə əlaqələndirirdi. Çoxluğun azlığa tabeçiliyinə əsaslanan bu model «tabeçilik» modeli adlanır.

«Maraq» modeli adlanan digər yanaşma müəllifləri A.Smit, H.Spenserin fikrincə, insanın öz maraqlarını reallaşdırma cəhdləri onların siyasətə münasibətini müəyyən edir. Bu modellər də birtərəflilik kimi qüsurlardan yan keçməsə də siyasi sosiallaşma ilə bağlı yeni modellər üçün sələf kimi az xidmət göstərməmişdir. Belə ki, sonralar C.Meriam, Q.Lasuel, D.İston, Q.Almond, M.Veber, R.Dayson və başqa xələflər bu modeli daha da dərinləşdirmiş və onları sistemləşdirmişdir.

Siyasi sosiallaşma bir proses olaraq ümumi, analoji modellər, konseptlərlə izah olunsa da hər bir cəmiyyətin ruhuna və xarakterinə uyğun çalarlara malikdir. Azərbaycan cəmiyyətinin spesifik səciyyələrə malik olması bu cəmiyyətdə də siyasi

sosiallaşmanın diqqətçəkən özəlliklərini şərtləndirir. Yaşadığımız cəmiyyətdə sosial əlaqələrin digər cəmiyyətlərdən fərqli sıxlığı, Azərbaycan ailəsinin mürəkkəb strukturu, siyasi dəyərlərə tolerant münasibətdə olan dinə malik olma, cəmiyyətimizin özünün hetorogen quruluşu, qapalı sistemdən açıq sistemə keçid, dünyəvi dəyərlərə malik olması siyasi sosiallaşma üçün münbit şəraiti şərtləndirir.

Hər bir cəmiyyətin həyatında konkret zaman anında və konkret tarixi şəraitdə müəyyən qeyri-ənənəvi hallar mövcud ola bilər və bu tam başa düşüləndir. Çünki sabit və qeyri-sabit cəmiyyətlərdə siyasi sosiallaşma eyni şəkildə yarana bilməz. Azərbaycan cəmiyyəti də sovet metropoliyasının dağılması ərəfəsində, xüsusilə də oxlokratiya dövründə və müstəqilliyinin ilk illərində kütləvi siyasiləşmə və siyasi kütlələşmə prosesini yaşamalı oldu. Belə proseslər cəmiyyətlərin həyatında qeyri-siyasi sahələri ləngitdiyi kimi Azərbaycanda da analoji təsirini göstərirdi. Qeyri-ənənəvi siyasi sosiallaşmanın arzuolunmaz nəticələrindən qorunmaq məqsədilə preventiv tədbirlər görmək heç də həmişə, xüsusilə də keçid cəmiyyətlərində mümkün olmur. Əgər keçid dövrləri bir cəmiyyətin həyatında permanent şəkildə baş verərsə bu nəticələr daha da ağır və aradan qaldırılması çətin prosesə çevrilə bilər. Adətən keçid dövrü təbii şəkildə, cəmiyyətin daxili mahiyyətindən və təbii ömür müddətindən törədikdə bütün başqa ictimai sferalar kimi siyasi sosiallaşma da öz normal inkişaf dinamikasına malik olur. Əsasən dəyişən cəmiyyətlərin siyasi sosiallaşması üçün xarakterik olan kütləvi siyasiləşmə və siyasi kütlələşmə vəziyyəti hər hansı ideologiyanın və siyasi qüvvənin hakimiyyətinin qərarlaşmasından sonra tədricən aradan götürülür. Belə ki, insanlarda həyatın başqa sahələrinə də maraq yaradılaraq siyasətə kortəbii qaçışın, kütlə qaçışının qarşısı alınır.

Azərbaycanın açıq cəmiyyətə, qloballaşmaya inteqrasiya olunduğu müasir dövrdə siyasi sosiallaşma istiqamətində mütərəqqi dəyişiklikləri də görmək çətin deyildir. Bu özünü istər vətəndaşların siyasi iştirakçılığa münasibətində, istərsə də elektoral davranışında büruzə verir. Əgər biz müstəqillik əldə etdiyimiz vaxtdan bugünəqədərki prezident, milli məclis və bələdiyyə seçkilərində cəmiyyətin siyasi iştirakçılıq və eloktoral davranış səviyyələrinin dinamikasına nəzər yetirsək qeyd olunan mənzərənin şahidi olarıq.Azərbaycan Respublikasının Milli Məclisinə 2005-ci il 6 noyabr seçkilərində iştirak edən namizədlərin (2000-dən yuxarı) və seçicilərin (46,8%) sayı bunu deməyə əsas verir ki, cəmiyyətdə siyasi sosiallaşma və siyasi iştirakçılıq üçün mötədil siyasi iqlim şəraiti vardır. Əvvəlki seçkilər dönəmində namizədlərin qeydiyyatı üçün lazım olan imza limitinin 2000-dən 450-yə endirilməsi də bu yöndə pozitiv dəyişiklik sayıla bilər. Exsit-poll, barmaqların rənglənməsi, bütün namizədlərə bərabər efir, reklam vaxtının ayrılması və.s. addımlar cəmiyyətdə seçkiyə və normal siyasi iştirakçılığa inam yaradır. Bu qənaəti 13 may 2006-cı ildə keçiriləcək Milli Məclisə təkrar

seçкilərdə iştiraк üçün bir yerə iyirmidən yuxarı namizədin iddialı olması faкtı da təsdiqləyir. 11 may 2005-ci ildə seçкi praкtiкasının təкmilləşdirilməsi haqqında, 25 oкtyabr 2005-ci ildə seçкiyə hazırlıq və onun кeçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında ölкə prezidentinin verdiyi sərəncamlar da Azərbaycan cəmiyyətində siyasi sosiallaşma və siyasi iştiraкçılıq üçün lazım olan sosial-psixoloji iqlimin yaranmasına təqdirəlayiq təsir göstərdi. Bu təsir seçкi nəticələrində də özünü təqdim etdi. Belə кi, seçкi nəticələrinin exsit-poll nəticələri ilə məlum nisbətdə fərqlənməsi (PA Konsultinq qrup təşкilatının nəticələri seçкi nəticələri ilə 85% üst-üstə düşdü) bunu bir daha sübut etdi. Əlbəttə, bütün cəmiyyətlərdə bu sahədə problemlər olduğu кimi Azərbaycanda da sözügedən istiqamətlərdə problemlər olmamış deyildir. Azərbaycanın кeçid dövrü, avtoritarizmdən demoкratiyaya кeçid şəraitində olması, кonservativ təfəккür tərzindən tam xilas olmaması belə problemlərin də olmasını təbii qəbul etməyə əsas verir. Və əlbəttə, кeçid tədriciliкlə baş verməzsə bu da öz növbəsində arzuolunmaz forsmajorlarla nəticələnə bilərdi. Ədalət naminə qeyd etməliyiк кi, ölкəmizdə cəmiyyətin demoкratiкləşməsi sahəsində кardinal dəyişiкliкlər mövcuddur. Bu isə insan-siyasət münasibətlərinin ahəngdar, normal inкişaf dinamiкasının olacağı ilə bağlı optimist düşünməyə imкan verir.

## ƏDƏBİYYAT


1. Аристотель. Сочинения .В 4 т . т.4. М., 1983.
2. Платон. Государство// Соч .Т.3-М.1994.
3. Вятр Е .Социология политических отношений . М., 1990.
4. Гончаров Д.В. Теория политического участия .
5. Наумова С.А. Что надо знать о политике. М., 1997.


## СПЕЦИФИЧЕСКИЕ ОСОБЕННОСТИ ОТНОШЕНИЙ «ЧЕЛОВЕК-ПОЛИТИКА»


**Ю.А.ШАФИЕВ**


## АННОТАЦИЯ


В представленной статье анализированы различные концепции относительно отношений «человек-политика», дана интерпретация политической социализации и политического участия в обществе, и связанного с ними прогрессивного изменения азербайджанского общества. Также дана оценка модельной классификации политической социализации. В заключении, автор приходит к выводу, что в любом обществе и в конкретный исторический период отношение «человек-политика» имеет специфические признаки, объясняющиеся закономерностями данного общества.